AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FİZİKA-RİYAZİYYAT VƏ TEXNİKA ELMLƏRİ BÖLMƏSİ

# 2014-cü ildə RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN ELMİ VƏ ELMİ-TƏŞKİLATİ FƏALİYYƏTİ HAQQINDA

# H E S A B A T I

BAKI - 2014

# AMEA Radiasiya Problemləri İnstitutunun əsas elmi istiqamətləri

NÜVƏ FİZİKASI,
ELEMENTAR ZƏRRƏCİKLƏR,
RADİASİYA FİZİKASI,
NANO VƏ RADİASİYA TEXNOLOGİYALARI
DAXİL OLMAQLA YÜKSƏK TEXNOLOGİYALAR

**2014-cü il**

# RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN KADR POTENSİALI

| İŞÇİLƏRİN ÜMUMİ SAYI | AKADEMİK | MÜXBİR ÜZV | ELMLƏR DOKTORU | FƏLSƏFƏ DOKTORU | ELMİ İŞÇİ | TEXNİKİ XİDMƏT İŞÇİLƏRİ | GƏNC MÜTƏXƏSSİSLƏR | İNSTİTUTUN KADRLARININ ORTA YAŞ HƏDDİ |
|---|---|---|---|---|---|---|---|---|
| 281 | 1 | 2 | 16 | 58 | 114 | 137 | 122 | 45 |

2014-cü il

# AMEA RADİASİYA PROBLEMLƏRİ İNSTİTUTUNUN STRUKTURU



# ELMİ-TƏDQİQAT İŞLƏRİ VƏ NƏTİCƏLƏRİ

**2014-cü il**

# 2014-cü ildə 5 problem üzrə 13 mövzuya uyğun 29 iş yerinə yetirilib:




2014-cü il

I PROBLEM: Neft karbohidrogenlərinin radiasion və nano-radiasion-katalitik çevrilmələri, polimerləşmə, ekoloji problemlərin həlli və universal enerji daşıyıcılarının alınması proseslərinin tədqiqi.




2014-cü il

# “HETEROGEN PROSESLƏRİN RADİASİYA KİMYASI” LABORATORİYASI



Laboratoriya rəhbəri

**Kimya üzrə F.D. Ağayev T.N.**







EMX Elektroparomaqnit
Rezonans spektrometri



**2014-cü il**

# I Mövzu: Su və $CO_2$ əsasında enerji daşıyıcılarının radiasion və nano-radiasion-katalitik alınması proseslərinin kinetika və mexanizminin tədqiqi

İş. Suyun individual və qarışıq nano-oksid katalizatorların iştirakı ilə radiasion-katalitik parçalanmasında hidrogenin alınma proseslərinin tədqiqi

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

Mərhələ 1. *Suyun n- $Al_2O_3$ iştirakı ilə radiasion-katalitik parçalanmasından hidrogenin alınmasının kinetikasının tədqiqi*

Suyun nano-$Al_2O_3$ iştirakı ilə radiolizi zamanı molekulyar hidrogenin çıxımının n-$Al_2O_3$ hissəcik ölçüləri ($R_0$) kiçildikcə $\lambda \geq R_0$ şərti ödənildiyindən səthi səviyyələrə enerji ötürülməsinin ($\lambda$) effektivliyi və molekulyar hidrogenin çıxımı artır.

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

Mərhələ 2. *Suyun n-$ZrO_2$, n-BeO, n-$SiO_2$ iştirakı ilə radiasion-katalitik parçalanmasından hidrogenin alınmasının kinetika və mexanizminin tədqiqi*

- Nano-$ZrO_2$-nin səthi akseptor mərkəzlərə elektrodonor su molekullarının molekulyar və dissosiativ adsorbsiya formaları, ionlaşdırıcı şüaların təsiri altında n- $ZrO_2$-$H_2O_S$ sistemində deşik xarakterli ion radikal, peroksid, hidrid və hidroksid radikallarının alınmasının udulma dozası və temperaturdan asılılıq qanunauyğunluqları Furye–infraqımızı spektroskopiya tədqiqatları əsasında aşkar olunub. Alınmış nəticələr nano-$ZrO_2$ radiasion texnologiya və nüvə reaktorlarında su ilə təmas mühitində tətbiqi sahələrdə nəzərə alınmaq üçün tövsiyyə olunur.
- Nano-$ZrO_2$-nin iştirakı ilə suyun radiasion-katalitik parçalanmasında molekulyar hidrogenin alınmasının kinetikası və temperaturun təsiri tədqiq olunub. Müəyyən edilib ki, hissəcik ölçüləri $R_0$ enerjidaşıyıcılarının sərbəst miqrasiya məsafəsindən ($\lambda$) kiçik olan ($\lambda > R_0$) 20-30 nm ölçülü n-$ZrO_2$-un iştirakı ilə suyun radiasion-katalitik parçalanma prosesində ionlaşdırıcı şüa enerjisinin effektiv çevrilmə və səthi səviyyəyə ötürülməsi prosesi və onun da nəticəsində molekulyar hidrogenin yüksək energetik çıxımı aşkar olunub. Temperaturun T=300-423K intervalında artımı bu sistemdə gedən radiasion-katalitik proseslər nəticəsində molekulyar hidrogenin çıxımının 3 dəfə artmasına səbəb olub.

# “ENERJİ QƏNAƏTEDİCİ RADİASİYA PROSESLƏRİ” LABORATORİYASI



Laboratoriya rəhbəri

**AMEA-nın müxbir üzvü, k.e.d., prof. Mustafayev İ.İ.**





**2014-cü il**

# II Mövzu: Neft və neft karbohidrogenlərinin radiasion və nano-radiasion katalitik çevrilmələri

İş 1: Neft və neft məhsullarının müxtəlif mühitlərdə ionlaşdırıcı şüaların təsiri altında çevrilmə prosesləri

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

Müəyyən edilmişdir ki, torpağa dağılmış neftin yağ fraksiyasında ətraf mühit parametrlərinin təsiri altında periferik funksional qrupların və ikiqat rabitələrin qırılması baş verir. Deqradasiyaya uğramış fraksiyanın otaq temperaturunda şüalanması zamanı polikondesasiya prosesi baş verir ki, bu da qaz yaranması prosesinin zəifləməsinə və paramaqnetizmin artmasına gətirir.

**2014-cü il**

# “ENERJİ TUTUMLU RADİASİYA PROSESLƏRİ” LABORATORİYASI

Laboratoriya rəhbəri

**Kimya üzrə F.D. Mahmudov H.M.**









**2014-cü il**

# II Mövzu: Neft və neft karbohidrogenlərinin radiasion və nano-radiasion katalitik çevrilmələri

İş 2: n- $Al_2O_3$ ilə n-heksanın radiasion-katalitik parçalanmasının kinetikasının tədqiqi

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

Təmiz heksanın nano $Al_2O_3$ katalizator səthində radiasiya, radiasiya-termiki çevrilməsindən qaz və maye fazada yaranan məhsulların kinetik asılılıqları otaq və yüksək temperatur intervallarında tədqiq edilmişdir. Müəyyən olunmuşdur ki, 8÷12 kQy udulan doza intervalında qaz fazada yaranan molekulyar hidrogenin çıxımı götürülən katalizator miqdarından asılı olaraq G=54.1molekul/100eV-a qədər artır. Təmiz heksana nisbətən çıxımın dəfələrlə artması udulan enerjinin katalizator səthindən sistemə ötürülməsi ilə izah olunur.

2014-cü il

# "ƏTRAF MÜHİTİN RADİASİYA KİMYASI" LABORATORİYASI

Laboratoriya rəhbəri

**k.e.d., prof. Qurbanov M.Ə.**







Gas chromatograph
(Agilent İCP-MS-7820 A)

**2014-cü il**

**III Mövzu: Neft istehsalı və emalı proseslərinin axıntılarının aromatik karbohidrogen və onların xlorlu birləşmələrindən radiasion təmizlənmə proseslərinin tədqiqi**

İş. Fenolların sulu mühitdə radiasion çevrilmə proseslərinin tədqiqi

2014-cü il

# ALINMIŞ NƏTİCƏ

- İkiatomlu fenolların (hidroxinon və rezorsin) su məhlullarının radiolizi zamanı onların çevrilmə prosesləri tədqiq olunmuş, udulma dozası artdıqca UB oblasta uyğun udma zolaqlarının intensivliklərinin, oksigenə kimyəvi təlabatın və mühitin pH-nın dəyişməsi öyrənilmiş, effektiv reaksiya sürəti sabitləri təyin edilmişdir.
- Fenolların radiolitik çevrilmə məhsulu kimi model sistem olaraq qarışqa turşusunun suda məhlulunun radiolizi zamanı yaranan məhsulların UB oblasta uyğun udma zolaqlarının intensivliklərinin, oksigenə kimyəvi təlabatın və pH-ın dəyişməsinin udulma dozasından asılılığı tədqiq edilmişdir.

**2014-cü il**

# "POLİMERLƏRİN RADİASİYA KİMYASI VƏ TEXNOLOGİYASI" LABORATORİYASI

Laboratoriya rəhbəri

k.e.d., prof. Məmmədov Ş.M.







**2014-cü il**

## IV Mövzu: Butadien-nitril kauçukunun müxtəlif inqridientlərin iştirakı ilə radiasion və radiasion-termik vulkanlaşma prosesləri nəticəsində aqressiv mühitə davamlı, yüksək fiziki-mexaniki xassələrə malik elastomerlərin və onların əsasında texniki məmulatların hazırlanması

İş. İzopiren-butadien nitril kauçuku qarışığında radiasion-kimyəvi proseslərin tədqiqi

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

- İzoprennitril sopolimerində metal oksidi və çox nüvəli aromatik birləşmələrin sensibilizator kimi iştirakı ilə gedən radiasiya-kimyəvi proseslər nəticəsində yüksək elastiklik, möhkəmlik xassələrinə malik, radiasiya və temperatura davamlı polimer material alınıb.

**2014-cü il**

# II PROBLEM: Metal, yarımkeçirici, oksid və polimer dielektriklərdə yüksək enerjili şüaların təsiri altında gedən proseslər, onların xassələrinin idarə olunması, radiasiyaya davamlılığının artırılması və radiasion cihazqayırma.




**2014-cü il**

# “YARIMKEÇİRİCİLƏRİN RADİASİYA FİZİKASI” LABORATORİYASI



Laboratoriya rəhbəri

**f-r.e.d., prof. Mədətov R.S.**





**2014-cü il**

**I Mövzu. Hidrogenlə implantasiya olunmuş GaS laylı yarımkeçirici kristallarında radiasion defektlərin termik çevrilmələri və onların kristalın elektrofiziki, optik xassələrinə təsiri**

İş. Sürətlənmiş protonla müxtəlif dozalarda şüalanmış GaS kristalında radiasion defektlərin termik çevrilmələrinin onun elektrofiziki xassələrinə təsiri

2014-cü il

# ALINMIŞ NƏTİCƏ

- GaS kristalında 100-200 keV enerjili protonların təsirindən yaranmış defektlərin termik davamlılığına şüalanma dozasının təsiri qanunauyğunluğu aşkar olunub. Belə ki, aşağı dozalarda $\Phi \leq 2 \cdot 10^{15}$ p $sm^{-2}$ əmələ gəlmiş effektlərin termik davamlılığı az olub $T \leq 150^{0}$ temperaturlarda məhv olur və yuxarı dozalarda şüalanma zamanı daha davamlı defektlər yaranır.

# “SEQNETOELEKTRİKLƏRİN RADİASİYA FİZİKASI” LABORATORİYASI

Laboratoriya rəhbəri

**f-r.e.d., prof. Sərdarlı R.M.**







**2014-cü il**

# II Mövzu. $A^{III}B^{III}C_2^{VI}$ tipli seqnetoaktiv birləşmələrdə və onların əsasında hazırlanan cihazlarda ionlaşdırıcı şüaların təsiri altında gedən proseslərin tədqiqi

İş 1: Qamma şüaların $(TlİnSe_2)_{1-x}$ $(TlGaTe_2)_x$ (x=1,0;0,9; 0,8) bərk məhlulunun dielektrik xassələrinə və elektrik keçiriciliyinə təsiri

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

- Müəyyən edilmişdir ki, quruluşunda transilyasiya, antistruktur və s. kimi defektlərin mövcud olduğu $(TlInSe_2)_{1-x}(TlGaTe_2)_x$ (x=0,8; 0,9; 1,0) sistemli bərk məhlullarında elektrik keçiriciliyi sıçrayışlı xarakter daşıyaraq Mott nəzəriyyəsi ilə izah olunur və 300K-dən yuxarı temperaturlarda isə superion hala keçid ilə bağlı xüsusiyyətlər meydana çıxır.
- Mott yaxınlaşması çərçivəsində hesablamalar əsasında qamma şüalanmadan sonra (50 Mrad) Fermi səviyyəsinin ətrafında lokallaşmış halların sıxlığının ($N_F$) 2 dəfə artması, dərin tələlərin konsentrasiyasının ($N_t$) 1,4 dəfə artması, eləcə də yükdaşıyıcıların sıçrayışlarının uzunluğunun qiymətinin (R) 8 dəfə azalması müəyyənləşdirilmişdir.
- Tədqiq olunan birləşmələrin Volt-Amper xarakteristikalarının qeyri-xətti hissəsi Pull-Frenkelin istilik-sahə effektinə tabe olur və bu effektə əsasən müəyyən edilmişdir ki, γ-şüalanmadan sonra (50 Mrad) ionlaşmış mərkəzlərin konsentrasiyası ($N_t$) 2 dəfə artır, lakin, sərbəst qaçış yolunun uzunluğu (λ) 1,1 dəfə, Frenkel əmsalının qiyməti (β) isə 1,2 dəfə azalır. Hesablanmış qiymətlər əsasında potensial çuxurun forması müəyyən edilmişdir.

# “NİZAMSIZ BƏRK CİSİMLƏRİN RADİASİYA FİZİKASI” LABORATORİYASI



Laboratoriya rəhbəri

**f-r.e.d., prof. Səmədov O.Ə.**






**2014-cü il**

# II Mövzu. $A^{III}B^{III}C_2^{VI}$ tipli seqnetoaktiv birləşmələrdə və onların əsasında hazırlanan cihazlarda ionlaşdırıcı şüaların təsiri altında gedən proseslərin tədqiqi

İş 2: TlİnS$_2$<C> bərk məhlullarının dielektrik və elektrik impedans spektrinin öyrənilməsi

2014-cü il

# ALINMIŞ NƏTİCƏ

- $TlInS_2$ kristalında 300K-dən yuxarı temperaturlarda (paraelektrik fazada) dielektrik və elektrik xassələrinin temperaturdan asılılıqlarında anamaliyalar müşahidə olunmuşdur.
- Göstərilmişdir ki, γ- kvantlarla şüalanmış $TlInS_2$ kristalının ($Z''-Z'$) kompleks müstəvi diaqramlarında yüksək tezlikli oblastın sərhəddi, şüalanma dozasının artması ilə tezliyin azalması istiqamətinə doğru sürüşür. Tədqiq olunan sistemlərdə keçiriciliyin mexanizmi, polyarizasiyanın tipi təyin olunmuş, ekvivalent sxem qurulmuşdur.

**2014-cü il**

# “POLİMERLƏRİN VƏ ELEKTROAKTİV KOMPOZİT MATERİALLARIN RADİASİYA FİZİKASI” LABORATORİYASI

Laboratoriya rəhbəri
f-r.e.d., prof. Məhərrəmov A.M.








**2014-cü il**

# III Mövzu. İfratyüksəkmolekullu polietilen (İYMPE), n- $Al_2O_{3,}$ n-$SiO_2$, CdS, ZnS ilə kompozit sistemlərinin dielektrik və elektret xassələrinə ionlaşdırıcı şüaların təsiri

İş. İfratyüksəkmolekullu polietilen (İYMPE), n- $Al_2O_3$, n-$SiO_2$ əsaslı kompozitlərin dielektrik və elektret xassələrinə qamma şüalanmanın təsirinin tədqiqi

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

- İYMPE matrisaya 1-2% həcmində nano-$SiO_2$ daxil etməklə nisbətən stabil elektret halına və radiasiyaya davamlı kompozit material alınıb.
- Doldurucunun həcmcə 2-3% miqdarında alınmış PTFE/CdS nanokompozitlərində ionlaşdırıcı radiasiyanın təsiri nəticəsində stabil elektret halı alınıb.

**2014-cü il**

# “RADİOKİMYA” LABORATORİYASI

Laboratoriya rəhbəri: (ictimai əsaslarla)

**Akademik Qəribov A.A.**








**2014-cü il**

## IV Mövzu. Nano ölçülü maddə və sistemlərdə radiasion defekt əmələgəlmə və onların neft hasilatı sahələrində tətbiqi üzrə effektlərin mexanizminin tədqiqi

İş 1: Nano ölçülü Si, $SiO_2$, BeO, $B_2O_3$ kristallarında radiasion defekt əmələ gəlmə prosesləri və onların elektrofiziki xassələrə təsiri

İş 2: n-Si, n-Be və paslanmayan poladın radiasion səthi oksidləşmə proseslərinin onların fiziki, səthi xassələrinə təsiri.

2014-cü il

# ALINMIŞ NƏTİCƏ

- Epitermal neytronlarla şüalanmış $\Phi=1,4\cdot10^{18}n/sm^2$ n-Si-un səthinin oksidləşməsi və hissəciklərin aqreqasiyası nəticəsində ölçülərinin artması müşahidə olunub. Neytron şüalanması nəticəsində n-Si –da iki tip mərkəzdə lokallaşmış elekronların qatılığının 4 dəfə artması müəyyən olunub.
- Nano-silisiuma qamma şüaların təsiri altında qeyri-tarazlı yükdaşıyıcılarının və defektəmələgəlmə proseslərinin modeli əsasında onların energetik çıxımları təyin edilmiş və n-Si+$H_2O$ sistemində optimal rejimdə radiasion-heterogen proseslər nəticəsində müşahidə olunan hidrogenin yüksək çıxımı ilə müqayisəsi göstərir ki, n-Si –un tədqiq olunmuş hissəcik ölçülərində R=100-500 nm qamma-şüaların təsiri altında əmələ gəlmiş enerji daşıyıcılarının səthi səviyyələrə effektiv daşınması baş verir.

**2014-cü il**

# III PROBLEM: Radioaktiv material və maddələrin təbiətdə paylanması, onlarla əlaqəli radioekoloji problemlər, radioaktiv şüaların ətraf mühitə təsiri və radiasiya təhlükəsizliyinin elmi əsasları




**2014-cü il**

# “RADİOKİMYA” LABORATORİYASI

Laboratoriya rəhbəri: (ictimai əsaslarla)

**Akademik Qəribov A.A.**



Alpha Analyst Alfa spektrometr ve HP Ge Detektorlu qamma spektrometr



HP Ge Detektorlu Qamma spektrometr, Canberra



Tri-Carb 3100TR maye sintilyasiya sayğacı

**2014-cü il**

## I Mövzu. Azərbaycan Respublikasının dağlıq əraziləri və sənaye regionlarında torpaq, su və havada radioaktiv izotoplar və onları müşahidə edən ekoloji zərərli maddələrin paylanmasının tədqiqi

İş 1: Azərbaycan Respublikasının Astara-Lerik-Yardımlı rayonlarında torpaq, su və havada radioaktiv izotopların paylanmasının tədqiqi və xəritələnməsi

İş 3: Dağ süxurları və qrunt sularında radioaktiv izotopların təyini və ayırma metodikalarının işlənməsi

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

- Astara-Lerik-Yardımlı rayonları ərazisində radiasiya fonu, torpaq və sularında radionuklidlərin paylanma durumlarının tədqiqi aparılıb. Radiasiya fonu rayonların ərazisində 4÷12 mkR/san intervalında dəyişir. Təbii radionuklidlərin ərazi boyunca paylanma qanunauyğunluqları aşkar olunub. Bəzi ərazilərdə dağ suxurlarında təbii radionuklidlərin aktivliyinin yüksək qiymətləri müşahidə olunub, həmin ərazilərin havasında radonun aktivliyi 80-612 Bk/$m^3$ intervalında dəyişir. Dağ və dağətəyi ərazilərin sularında radonun miqdarının nisbətən yüksək qiymətləri aşkar olunub.
- Qax –Zakatala zonasında artezian sularında son zəlzələdən sonra təbii radionuklidlərin qatılıqlarının dəyişmə kinetikasının tədqiqi davam etdirilmişdir. Müəyyən edilib ki, yeraltı textoniki proseslər nəticəsində artezian, bulaq sularında yaranmış Uran izotoplarının və parçalanma məhsullarının yüksək aktivliyi azalmaqda davam etmişdir. Ümumdünya Səhiyyə Təşkilatının (WHO) normativ sənədlərinə əsasən 27.04.2014 tarixində artezian sularında uranın qatılığı yol verilən həddə uyğun olub. Alınmış nəticələr gələcək təbii kataklizmlər zamanı əhalinin mühafizəsi üzrə əməliyyat planlarında nəzərə alınmaq üçün tövsiyyə olunur.

**2014-cü il**

# “ƏTRAF MÜHİTƏ ZƏRƏRLİ FAKTORLARIN FİZİKA VƏ KİMYASI” LABORATORİYASI

Laboratoriya rəhbəri
Fizika üzrə F.D. Süleymanov B.A.








Varian Cary 50 UV
Gas chromatograph





MAYEDƏ ZƏRRƏCIKLƏRI SAYAN CIHAZ - LPC




XRF Analyser



VARIAN 450GC qaz xromatoqrafı

**2014-cü il**

# “ƏTRAF MÜHİTƏ ZƏRƏRLİ FAKTORLARIN FİZİKA VƏ KİMYASI” LABORATORİYASI

Laboratoriya rəhbəri

Fizika üzrə F.D. Süleymanov B.A.





GC/MS TRACE DSQ Thermo Electron - Finnigan
Gaz Xromatograf / Kütlə spektrometri



İnduktiv əlaqəli plazma-kütlə spektrometri
(ICP-MS -7700x) - Agilent



SpectrAA-220FS+GTA110-
Atom Absorbsiya spektrometri - Varian



AAnalyst-800-Atom Absorbsiya spektrometri -
Perkin Elmer



GC/FİD/ECD CP-3800 qaz
xromatografı - VARİAN

**2014-cü il**

# I Mövzu. Azərbaycan Respublikasının dağlıq ərazilərı və sənaye regionlarında torpaq, su və havada radioaktiv izotoplar və onları müşayiət edən ekoloji zərərli maddələrin paylanmasının tədqiqi

İş 2: Uran-Torium-Radium izotopları, ağır metallar və politsiklik karbohidrogenlərin sənaye zonalarının torpaq örtüyü və su hövzələrində paylanmasının tədqiqi, fon konsentrasiyalarının təyini üçün informasiya bazasının yaradılması

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

1. Laboratoriya beynəlxalq akkreditasiyanın təsdiqi və genişləndirilməsi üzrə fəaliyyəti davam etdirmişdir.
2. Azərbaycanın bütün zonalarında olan 66 çay suyu mənbəyindən nümunələr götürülmüş (AMEA Geologiya İnstitutu ilə birgə layihə) və nümunələr tam anion-kation balansı və metallar üzrə (U238 və Th232 daxil olmaqla) tədqiq olunmuşdur. Heç bir su nümunəsində U238 (max 7ug/L) və Th232 üzrə yüksək konsentrasiyalar aşkar olunmamışdır.
3. Lay suyu nümunələrinin tam kimyəvi tərkibinin tədqiqi üzrə tədqiqatlar başlanmışdır. Alkil-fenollar və üzvü turşuların təyini üzrə GC/MS SPME metodları inkişaf etdirilmişdir.

**2014-cü il**

# II Mövzu. Uran və radium tərkibli ərinti və oksid sistemlərin alınması, daxili şüalanmanın onların fiziki və fiziki-kimyəvi xassələrinə təsiri

İş. Uran-silikat, radium-silikat sistemlərinin fiziki və fiziki-kimyəvi xassələrinə radioaktiv izotopların parçalanma proseslərinin təsiri

2014-cü il

# ALINMIŞ NƏTİCƏ

Müəyyən olunub ki, uranil qrupunun silikat sisteminə daxil edilməsi yükdaşıyıcıların miqdarını artırır. $SiO_2$ və $(UO_2)_x$-$(SiO_2)_y$ sistemlərinə qamma şüaların təsiri nəticəsində qeyri-tarazlı yükdaşıyıcıların əmələ gəlməsi nümunələrin elektirik keçiriciliyini artırır. Elektrik keciriciliyinin temperatur asılılığının $SiO_2$–də üç, $(UO_2)_x$-$(SiO_2)_y$ nümunələrində iki hissədən ibarət olması aşkar olunub.

Müəyyən olunub ki, uranil qrupunun miqdarı artdıqca uranil-silikatların elektrik keciriciliyinin aktivləşmə enerjisi artır, bu isə uranil qrupunun daha dərin səviyyələri yaratmasını göstərir. $SiO_2$ və uranil-silikatın xarici qamma şüalanması nəticəsində elektrik keçiriciliyinin aktivləşmə enerjisinin azalmasına səbəb olur.

**2014-cü il**

# “RADİOBİOLOGİYA” LABORATORİYASI

Laboratoriya rəhbəri

**b.e.d. Cəfərov E.S.**





Termostat



Fitatron

**2014-cü il**

# III Mövzu. Radioaktiv çirklənmə və ionlaşdırıcı şüaların bitki və canlılara təsiri, bu təsirdən müdafiə üsullarının işlənməsi və radiasion sterilizasiya proseslərinin yerli şəraitə müvafiq parametrlərinin təyini

İş 1: Müxtəlif dənli bitkilərin radiasiya və kimyəvi amillərin birgə və ayrılıqda təsirinə adaptiv reaksiyasının tədqiqi

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

Mərhələ 1. Toxumları səpindən əvvəl həm müxtəlif dozalarda γ-şüalanmanın təsirinə məruz qalmış, həm də müxtəlif konsentrasiyalı NaCl məhlulunda yetişən noxud bitkisinin stres şəraitlərində boyatma və inkişafında şüalanma dozasından və NaCl –un konsentrasiyasından aşkar asılılıq müəyyən edilmişdir. Aydın olmuşdur ki, belə şəraitlərdə bitkinin antioksidant müdafiə sistemi fəallaşır və bu fəallaşmada adı çəkilən sistemin həm antioksidant fermentləri, həm də kiçikmolekullu antioksidantları iştirak edir. Nəticələr onların koordinasion fəaliyyət göstərməsinə dair fikir söyləməyə əsas verir.

Mərhələ 2. Cücərməyə başlayan buğda və tritikale dənlərinin 50-125Gy dozada şüalandırılması zamanı bitkilərin cücərmə qabiliyyəti artır. 125-150Gy dozada şüalandırılma cücərməni azaldır, 250Gy bitkini tamamilə məhv edir.

**2014-cü il**

# “RADİOPROTEKTORLAR” LABORATORİYASI

Laboratoriya rəhbəri

**Kimya üzrə F.D. Abdullayev A.S.**









**2014-cü il**

# III Mövzu. Radioaktiv çirklənmə və ionlaşdırıcı şüaların bitki və canlılara təsiri, bu təsirdən müdafiə üsullarının işlənməsi və radiasion sterilizasiya proseslərinin yerli şəraitə müvafiq parametrlərinin təyini

İş 2: Radiasiyaya qarşı orqanizmlərin davamlılığını artıran, şüa zədələnmələrində bərpaedici xassələr göstərən fitokompozisiyaların alınması və tədqiqi

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

Alınmış təcrübi nəticələr zəncirotu-pitraq fitokompozisiyasının radioprofilaktik məqsədlərlə bioloji aktiv əlavə kimi istifadəsini tövsiyə etməyə imkan verir.

2014-cü il

# "RADİOEKOLOGİYA" LABORATORİYASI

Laboratoriya rəhbəri

**AMEA-nın müxbir üzvü, K-t.e.d. Abdullayev M.A.**









**2014-cü il**

## III Mövzu. Radioaktiv çirklənmə və ionlaşdırıcı şüaların bitki və canlılara təsiri, bu təsirdən müdafiə üsullarının işlənməsi və radiasion sterilizasiya proseslərinin yerli şəraitə müvafiq parametrlərinin təyini

İş 3: Bakı şəhəri Suraxanı rayonunun biogenozlarının radioekoloji xüsusiyyətlərinin öyrənilməsi və müvafiq xəritələrin tərtib edilməsi

İş 4: Radiasiya amillərinin  bitkilərdə dəmir oksidi maqnit nanohissəciklərinin miqdari xarakteristikasına təsirinin tədqiqi

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

1. Suraxanı rayonuna daxil olan Zığ və Hövsan qəsəbələrinin ərazilərinin torpaqlarında $^{40}K$ təbii radionuklidi əsasən mütəhərrik formada mövcuddur və çoxillik ot bitkilərinin bu radionuklidi əsasən köklərində topladıqları ehtimal olunur.
2. Əmircan qəsəbəsi ərazisi torpaqlarında $^{40}K$ təbii radionuklidi əsasən bitkilər tərəfindən çətin mənimsənilən formadadır.
3. Müəyyən olunmuşdur ki, bitkilərdə biogen yolla dəmir oksidi maqnit nanohissəciklərinin formalaşmasında biomineralizasiya mexanizmi rol oynayır və radioaktiv çirklənmə bu prosesə stimullaşdırıcı təsir göstərir. Belə təsir effekti müxtəlif sahələrdə tətbiq olunan funksional dəmir oksidi nanohissəciklərinin sintezində istifadə edilə bilər.

**2014-cü il**

# IV PROBLEM: Nüvə materialları, çevrilmələri və texnologiyaları




**2014-cü il**

# “RESPUBLİKA NÜVƏ VƏ RADİASİYA TƏHLÜKƏSİZLİYİ ÜZRƏ EKSPERTİZA” MƏRKƏZİ








**2014-cü il**

# “RESPUBLİKA NÜVƏ VƏ RADİASİYA TƏHLÜKƏSİZLİYİ ÜZRƏ EKSPERTİZA” MƏRKƏZİ




Omega XRF (rentgen flüorissent spektrometr)
**14C izotopuna görə geoloji və bioloji nümunələrin yaşının təyin olunmasıda istifadə olunan avadanlıqlar.**




**ΣİGMA ™ Field Emisson Scanning Electron Microscope**

**2014-cü il**

# Əldədaşınan laboratoriya avadanlıqları




**İnSpector 1000 (γ və n), CANBERRA**




**HP Ge handheld Spectrometr, BSİ**




**AtomTex, Radiagem 2000, CANBERRA**



**Polimaster, Radeye, GPS-Garmin**

**2014-cü il**

# I Mövzu. Nüvə və yüksək enerjili hissəciklərin toqquşması, ayrılan şüa və məhsulların detektə prosesləri

İş 1: Nüvələrin toqquşması zamanı yaranan adronların kimyəvi fluktuasiyası və korelyasiyası

2014-cü il

# ALINMIŞ NƏTİCƏ

- 1. Nüvə materiyasının faza quruluşunu araşdırmaq məqsədi ilə CERN-nin SPS sinxrotronunda 20A-158A GeV enerji intervalında 5 müxtəlif enerjilərdə Pb-Pb nüvə toqquşmasında gedən proseslərin analizi aparılmışdır. Hadisədən-hadisəyə kimyəvi fluktuasiya siqnallarının ilk dəfə diferensial şəkildə analizi aparılmış, onların reaksiyasının faza fəzasından asılılığı müəyyən edilmişdir. İlk dəfə olaraq Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən STAR təcrübəsi ilə CERN-nin NA49 təcrübəsindən alınmış eyni fluktuasiya siqnalları arasındakı fərqlərin izahı verilmişdir.
- 2. Müxtəlif enerjili Pb+Pb və Au+Au toqquşmalarında yaranmış kaonların sayının pionların sayına nisbətinin nüvələrin ölçüsündən asılılığı aşkar olunub.

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

- 3. Üç ölçüdə superkonformlu indeks texnikasından istifadə olunaraq yeni supersimmetrik duallıq tapılmışdır. Bu texnikadan istifadə edərək supersimmetrik nəzəriyyələrdə gizli simmetriyalar öyrənilmişdir.
- 4. D+Au (deyterium+qızıl) və Au+Au nüvə toqquşması $\sqrt{S_{NN}}$=200 GeV enerjilərdə RHIC STAR detektorunda aparılmış eksperimental materiallarda analiz edilərək statistik fluktuasiyaların və detektorun ayırdetmə funksiyasının verdiyi sistematik geyri-müəyyənlikləri çıxdıqdan sonra yükün assimmetriyası effekti müşhaidə olunmuşdu. Belə yük assimmetriyaları mərkəzi toqquşmalar adlanan proseslərdə araşdırılmışdır. Bu effektin müzakirə olunan kirial maqnit effektinə (CME) təsiri öyrənilmişdir.

**2014-cü il**

# I Mövzu. Nüvə və yüksək enerjili hissəciklərin toqquşması, ayrılan şüa və məhsulların detektə prosesləri

İş 3: İBR-2M reaktorunda neytron-küy analizinin Furye alqoritmi vasitəsi ilə tədqiqi

İş 5: Qamma və neytron şüalarının yeni detektorları, onların əsasında daha həssas və sürətli qeyd edən cihazların hazırlanması

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

- Modernə olunmuş İBR-2 reaktorunda enerji impulslarının stoxastik fluktasiyası və paylanması tədqiq olunub. Müəyyən olunub ki, vahid nüvə parçalanma aktında yaranmış neytronların stoxastik fluktasiyası enerji ayrılmasının intensivliyinin fluktuasiyasını yaradır. Yüksək səviyyəli intensivliklərdə fluktuasiyaların tədqiqi reaktorların xarici reaktivliyinin gərginləşməsi səbəblərini və onun dinamikasının müəyyənləşməsi, son nəticədə isə reaktor işinin təhlükəsizliyi haqqında məlumat əldə etməyə imkan verir.
- MPSF + LFS əsaslı ssintilyatorun yüksək həssaslıqla qamma şüaları detektə etmə xassələri aşkar olunub.

  Stilben+MPSF diodlar əsasında hazırlanmış detektorların sürətli neytronları yüksək həssaslıqla qeydetmə xassəsi aşkar olunub. Alınmış detektorlar materialı sürətli neytron sayğaclarının hazırlanmasında tətbiq üçün təklif olunur.

**2014-cü il**

# V PROBLEM: Effektiv günəş su qızdırıcıları, günəş və külək enerjilərinin uzlaşdırma sistemləri və birgə istifadə yollarının işlənilməsi

Bu elmi-tədqiqat işində Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli, 462 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının (2011-2015-ci illər) uyğun bölmələrini əhatə edən işlər yerinə yetirilmişdir.

**V Problem**

**Mövzu**

**İş 1**

**2014-cü il**

# “BƏRPA OLUNAN ENERJİ NÖVLƏRİNİN ÇEVRİLMƏSİ” LABORATORİYASI

Laboratoriya rəhbəri

**t.e.d., prof. Rzayev P.F.**








Günəş Su Qızdırıcısının (GSQ) laboratoriya modeli

**2014-cü il**

# I Mövzu. İstilik akkumulyasiyaedici maddələrin və “istilik tələli”əsaslı günəş kollektorlarının istilik proseslərinin tədqiqi, kənd və bağ evlərində tətbiqi üçün təkliflərin işlənilməsi

Iş: Günəş su qızdırıcı laboratoriya qurğusunun ilkin istilik energetik tədqiqi

**2014-cü il**

# ALINMIŞ NƏTİCƏ

Asan əriyən maddə (parafin) əsasında istilik akkumulyatorlu yeni konstruksiyalı günəş su qızdırıcısının (GSQ) prinsipial sxemi işlənib hazırlanmış və ilkin sınaq təcrübələri aparılmışdır ki, bu da Abşeronun təbii şəraitində kənd (bağ) evlərində əhalinin sanitar-gigienik şəraitini yaxşılaşdırmağa imkan verir. Belə ki, səhər vaxtı (7-8 saatlarında) suyun temperaturunu 22-25$^0$ C intervalında saxlamaq mümkündür.

**2014-cü il**

# Radiasiya Problemləri İnstitutunun FRTE Bölməsinə təqdim etdiyi

# M Ü H Ü M N Ə T İ C Ə L Ə R

## I PROBLEM: Neft karbohidrogenlərinin radiasion və nano-radiasion-katalitik çevrilmələri, polimerləşmə, ekoloji problemlərin həlli və universal enerji daşiyicilarinin alinmasi proseslərinin tədqiqi.

1. Nano oksidlərin (n- $Al_2O_3$, n- $ZrO_2$ ) iştirakı ilə suyun radiasion katalitik parçalanma prosesində hissəcik ölçüləri ($R_0$) qeyri-tarazlı yükdaşıyıcılarının sərbəst miqrasiya məsafəsinin qiymətlərinə yaxınlaşdıqca və temperaturun artması ilə ionlaşdırıcı şüa enerjisinin səthi səviyyəyə ötürülməsi proseslərinin effektivliyi və universal enerji daşıyıcısı hidrogenin energetik çıxımı artır.

Məsul icraçılar: Akademik Qəribov A.A.,
Kimya üzrə F.D. Ağayev T.N.

2. Model n- $Al_2O_3$-heksan sistemində radiasion-termokatalitik proseslərin tədqiqi əsasında müəyyən edilib ki, katalizator hissəciklərinin ölçüsü $R \leq 20$ nm, temperaturun $T \geq 400^oC$, katalizator-heksan nisbətinin optimal qiymətlərində ionlaşdırıcı şüa enerjisinin cevrilib səthi səviyyəyə effektiv ötürülməsini təmin etdiyindən molekulyar hidrogen və $C_1$ $-C_5$ karbohidrogenlərin çıxımı homogen proseslərə nisbətən kəskin artır. Alınmış nəticələr gələcəkdə nano-katalizatorların iştirakı ilə karbohidrogenlərin radiasion-termokatalitik krekinqi proseslərinin elmi əsaslarının işlənilməsi üçün əsas rol oynayacaqdır.

Məsul icraçılar: Akademik Qəribov A.A.

## I PROBLEM: Neft karbohidrogenlərinin radiasion və nano-radiasion-katalitik çevrilmələri, polimerləşmə, ekoloji problemlərin həlli və universal enerji daşiyicilarinin alinmasi proseslərinin tədqiqi.

3. Müəyyən edilmişdir ki, torpağa dağılmış neftin yağ fraksiyasında ətraf mühit parametrlərinin təsiri altında periferik funksional qrupların və ikiqat rabitələrin qırılması baş verir. Deqradasiyaya uğramış fraksiyanın otaq temperaturunda şüalanması zamanı polikondesasiya prosesi baş verir ki, bu da qaz yaranması prosesinin zəifləməsinə və paramaqnetizmin artmasına gətirir.

Məcul icraçılar: k.e.d., prof. Mustafayev İ.İ.,
Texnika üzrə F.D. Yaqubov.K.M., Texnika üzrə F.D. Quliyeva N.Q

4. İzoprennitril sopolimerində metal oksidi və çox nüvəli aromatik birləşmələrin sensibilizator kimi iştirakı ilə gedən radiasiya-kimyəvi proseslər nəticəsində yüksək elastiklik, möhkəmlik xassələrinə malik, radiasiya və temperatura davamlı polimer material alınıb. Alınmış polimer material texnikanın müxtəlif sahələrində tətbiq üçün tövsiyyə olunur.

Məsul icraçı: k.e.d. Məmmədov Ş.M.

## II PROBLEM: Metal, yarımkeçirici, oksid və polimer dielektriklərdə yüksək enerjili şüaların təsiri altında gedən proseslər, onların xassələrinin idarə olunması, radiasiyaya davamlılığının artırılması və radiasion cihazqayırma.

1. $TlInS_2$ kristalında 300K-dən yuxarı temperaturlarda (paraelektrik fazada) dielektrik və elektrik xassələrinin temperaturdan asılılıqlarında anamaliyalar müşahidə olunmuşdur. Göstərilmişdir ki, $\gamma$- kvantlarla şüalanmış $TlInS_2$ kristalının (Z″−Z′) kompleks müstəvi diaqramlarında yüksək tezlikli oblastın sərhəddi, şüalanma dozasının artması ilə tezliyin azalması istiqamətinə doğru sürüşür. Tədqiq olunan sistemlərdə keçiriciliyin mexanizmi, polyarizasiyanın tipi təyin olunmuş, ekvivalent sxem qurulmuşdur.

Məsul icraçılar: f.-r.e.d., prof. Səmədov O.Ə.

2. İfrat yüksək molekullu polietilenə (İYMPE) 1-2 həcm faizində nano-$SiO_2$ daxil etməklə nisbətən stabil elektret halına və radiasiyaya davamlı kompozit material alınıb.

Məsul icraçılar: f.-r.e.d. Məhərrəmov A.M.,
Fizika üzrə F.D. Quliyev M.M.

3. Epitermal neytronlarla şüalanmış $\Phi=1{,}4\cdot10^{18} n/sm^2$ n-Si-un səthinin oksidləşməsi və hissəciklərin aqreqasiyası nəticəsində ölçülərinin artması müşahidə olunub. Neytron şüalanması nəticəsində n-Si –da iki tip mərkəzdə lokallaşmış elekronların qatılığının 4 dəfə artması müəyyən olunub.

Məsul icraçılar: Akademik, k.e.d., prof. Qəribov A.A.,
